*5 oktyabr—Müəllimlər Günüdür*

# Uğurlar diləyirik

Müəllim əməyini bəzən bağban əməyi ilə müqayisə edirlər. Çünki, hər ikisi canlı «bar ağacı» yetişdirir. Bəhrəsini gördükdə fərəhlənir, gururlanır. Müəllim hər şeydən əvvəl ziyalıdır. Xalqın, millətin içərisində sayılıb-seçilən bir şəxsdir. Sokrat yazırdı: «Valideynlərim məni dünyaya gətirmişdisə, müəllimlərim məni göylərə qaldırdı». «Mən müəllim adından uca ad tanımıram». Bu sözləri isə ümummilli liderimiz Heydər Əliyev söyləmişdir.



Bu bayram günündə müəllimdən söz açarkən oxucuları gözəl və dəyərli insan, yüksək intellektə malik olan əsl müəllim—Aslan İslam oğlu İslamovla tanış etmək istəyirəm.

Aslan İslamov 1957-ci ildə Həmzəli kəndində zəhmətkeş bir ailədə dünyaya göz açıb. 1965-ci ildə kənd məktəbinin 1-ci sinfinə qədəm qoyan Aslan 1975-ci ildə orta təhsil haqqında attestat alıb. Lap kiçik yaşlarından şərəfli və çətin, müqəddəs müəllimlik peşəsinə marağı olan A.İslamov elə həmin il sənədlərini indiki Azərbaycan Dövlət Dillər Uniiversitetinin ingilis dili fakültəsinə verir. Qəbul imtahanlarından uğurla keçən gənc Aslan tələbə adına layiq görülür. Beşillik tələbəlik illəri də uğurla keçir. Ali təhsil diplomu alaraq təyinatla rayona qayıdan Aslan İslamovu təhsil şöbəsi Qəmərvan kənd orta məktəbinə müəllim göndərir. Gənc müəllim 4 il burada öz ixtisası üzrə çalışır və şagirdlərinə bu fənni sevdirə bilir. Öz peşəsinin vurğunu olan Aslan müəllim sonralar rayonumuzun Tikanlı, Cığatelli, Abrıx kənd məktəblərində, şəhər 4 saylı orta məktəbdə çalışır, şagird və valideynlərin sevimlisinə çevrilir. Bacarıqlı pedaqoq olan Aslan müəllimin ən gözəl xüsusiyyətlərindən biri odur ki, o,daim öyrənir və öyrədir. Özünün səmimi davranışı ilə cəmiyyətdə seçilən bu gülərüz müəllim 1997-ci ildən doğma Həmzəli kənd tam orta məktəbində müəllimliyini davam etdirir. O, bir neçə il burada tərbiyə işləri üzrə direktor müavini işləyir. Onu da qeyd etmək yerinə düşər ki, Aslan müəllim həm də saat hesabı Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzində dərs deyir. Aslan müəllimin ictimai işlərə də marağı sonsuzdur. O, rayonun ictimai-siyasi mühitində fəaliyyəti ilə seçilir. Aslan müəllim uzun illər kənddə seçki məntəqəsinin üzvü kimi fəaliyyət göstərib.

İngilis dilini sevən, onu şagirdlərinə sevdirən bacarıqlı müəllim dəfələrlə «Təhsil» jurnalında, «Qəbələ» qəzetində öz iş təcrübəsi ilə çıxışlar edib. Onun bütün bu gözə çarpan fəaliyyəti rayon icra hakimiyyətinin, həmkarlar komitəsinin, məktəb rəhbərliyinin fəxri fərmanları ilə təltif edilib. Bunların hamısı Aslan müəllimi daha yaxşı işləməyə ruhlandırıb.

Aslan İslamov bir müddət rayonumuzda fəaliyyət göstərən «Beltmann» piano fabrikində direktorun köməkçisi vəzifəsini də icra edib. Qürurla qeyd etməliyəm ki, müəllim həmkarım Azərbaycanda qədim Alban kilsələrinin tarixinə və bu günkü fəaliyyətinə dair çəkilmiş «Gecikmiş həqiqətlər» sənədli filminin çəkilişində böyük əmək sərf edib. Bu gün bacarıqlı müəllim kimi tanınan A.İslamov həm də ziyalılar ailəsinin başçısıdır, yolgöstərənidir. Ömür-gün yoldaşı Lutviyyə müəllimə ibtidai sinif müəllimidir. Həmzəli kənd məktəbində seçilib tanınan müəllimlərdəndir. Onlar bu mehriban ailədə 3 övlad böyüdüb tərbiyə etmiş və onlarda elmə maraq oyatmışlar.

Gülər xanım da, Əsmər xanım da ata-analarının şərəfli yolunu seçib. Hər ikisi ingilis dili müəllimidir. Ailə sahibidirlər. Gülər müəllliməTurizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzində öz ixtisası üzrə işləyir. o, həm də poeziya həvəskarıdır. Gözəl şeirlər yazır. Əsmər müəllimə isə Cığatelli kənd tam orta məktəbin müəllimidir. Yeganə oğlu olan İlkin isə həkimlik peşəsini seçib. Pediatrdır.

Aslan müəllim həmişə özünün yetirmələri ilə öyünür və fəxr edir. Onun yetirmələri olan Aygül Şirinova, Aygün Rəşidzadə, Zərif Məcnunzadə və Yeganə Babayeva bu gün onunla bir kollektivdə çalışır və balalarımıza ingilis dilini həvəslə öyrədirlər.

Biz də Aslan müəllimin uğurları ilə fərəhlənir, Müəllimlər günü münasibəti ilə bütün müəllimləri, o cümlədən Aslan müəllimi ürəkdən təbrik edir, ona gələcək fəaliyyətində daha yüksək uğurlar diləyirik.

**Emin BARATOĞLU,**
**AJB-nin üzvü.**

*Rayon mərkəzi kitabxanasında tədbir*

# «Xocalını unutmuruq!»

Azərbaycan xalqı 1992-ci il Fevralın 25-dən 26-na keçən gecə uzun illər görəyimizi yeyib, suyumuzu içən məkrli erməni quldurlarının törətdiyi vəhşiliklərin, dəhşətlərin şahidi oldu. Həmin gecə ən müasir silahlar və texnika ilə silahlanmış keçmiş sovet ordusunun 366-cı alayının iştirakı ilə Azərbaycanın Xocalı şəhəri yerlə yeksan edildi. Yüzlərlə günahsız əhaliyə qadınlara, uşaqlara, qocalara divan tutuldu. Xüsusi qəddarlığı ilə seçilən təcavüz aktı təkcə Xocalı əhalisinə deyil, bütövlükdə insanlığa qarşı misli görünməmiş cinayət idi. Əsrin əvvəllərindən başlayaraq erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı dəfələrlə soyqırım aksiyaları törədilmişdir. Xocalı soyqırımı bunların ən dəhşətlisi olmuşdur.

Xocalı soyqırımına siyasi qiymət verən və bu barədə dünyanın ən yüksək tribunalarından danışan ümummilli lider Heydər Əliyev Xocalı sakinləri ilə görüşündə demişdir. «Biz toplaşıb xocalı faciəsinin cavabını verək, şəhidlərin qanını yerdə qalmaması gününü görək Azərbaycanın ərazi bütövlüyünü təmin edək. Müstəqil Azərbaycanın hüdudlarını tamamilə bərpa edək. İnanıram ki, Azərbaycan xalqı belə qüdrətə malikdir."

Azərbaycan Milli Məclisi fevralın 26-nı "Xocalı Soyqrımı Günü" elan etmişdir. Hər il fevralın 26-da Azərbaycan xalqı Xocalı soyqırımının qurbanlarının xatirəsini yad edir.

Doğma yurdlarından didərgin düşmüş və Azərbaycanın 48 rayonuna səpələnmiş Xocalı sakinləri Ermənistanın Azərbaycana qarşı təcavüzünün dəf edilməsi ümidi ilə yaşayırlar.

Heydər Əliyev fondu ötən illər ərzində Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması istiqamətində böyük işlər görüb.

Azərbaycan həqiqətlərinin, Xocalı həqiqətlərinin təbliğ edilməsi ilə əlaqədar Qəbələ rayon MKS-nın Mərkəzi kitabxanasında 26 sentyabr 2015-ci il tarixində "Xocalını unutmuruq" başlığı altında tədbir keşirilmışdir. Tədbirdə Qəbələ rayon MKS-nın işçiləri ilə yanaşı Qəbələ rayon ziyallıları, ağsaqqallar şurasının üzvləri, "Xocalının səsi" və "Ziyallı" qəzetinin əməkdaşı F. Əzizli iştirak etmişlər.

Tədbir Xocalı faciəsi şəhidlərinin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə açıldı. Daha sonra Qəbələ rayon MKS-nin direktoru Ramiz Mirzəyev əvvəlcə qonaqları və tədbir iştirakçılarını salamlayaraq onları Qəbələ rayon MKS-nin Mərkəzi kitabxanasında görməkdən məmnun olduğunu bildirmişdir. R. Mirzəyev Xocalı soyqrımından söhbət açaraq bu hadisənin ermənilər tərəfindən Azərbaycana qarşı zaman-zaman törədilmiş faciələrdən biri olduğunu qeyd etmişdir. Baş vermiş faciələri unutmağa mənəvi haqqımız yoxdur və bu qanlı hadisələr qan yaddaşımıza əbədi həkk olunmalıdır sözlərini vurğulamışdır. Sonra söz «Əməkdar müəllim» Fərman Əzizliyə verilmişdir. F. Əzizli ermənilərin Azərbaycana qarşı həmişə qərəzli mövqedə olduğundan söhbət açmış, Xocalının da, bütünlüklə Qarabağın da bizim yaralı yerimiz olduğunu bildirmişdir. Gün olacaq bütün Qarabağ da, Xocalı da azad olacaq, qaçqın, köçgünlərimiz öz yurd və yuvalarına qayıdacaqlar sözlərini söyləmişdir.

Tədbiri Ağsaqqallar şurasının üzvləri Süleyman baba, Sabir Hümbətov, Vaqif Arzumanov və həvəskar şairlər Səməd Hüseynov, Əhməd Məmmədli (Nic qəsəbə məktəbinin müəllimi), Cəlil Komradlı, Şahid Quliyev, Qədirov Elçin davam etdirərək Xocalı faciəsinin əsrin faciəsi olduğunu qeyd etmişdilər.

Daha sonra MKS-nin işçiləri Məlahət Qarayeva, Sədaqət Kərimova, Ülkər Qədirova, Sahibə Hüseynova və başqaları öz fikirlərini söyləmişlər.

Sonda MKS-nin Mərkəzi kitabxanasında açılmış "Gəlin mütaliə edək!" mövzusunda olan sərgiyə baxış keçirildi.

**Günel QARAYEVA,**
**Qəbələ MKS-nin işçisi.**

# Qəbələ rayonunun kəndlərində qoz və şabalıd yığımına başlanılıb

Yetişmiş bol məhsulun vaxtında və itkisiz toplanılması üçün kənd və qəsəbələrimizdəki bağlarda iməciliklər təşkil olunur. Kəndlilər cari ildə 386 hektar şabalıd və 156 hektar qoz bağında bol məhsul yetişdiriblər. Mütəxəssislərin sözlərinə görə, bu il havanın əlverişli olması və ağaclara lazımi aqrotexniki qulluğun göstərilməsi onu deməyə əsas verir ki, məhsuldarlıq ötən illə müqayisədə daha çox olacaq. Kəndlilər topladıqları məhsulu öz həyətlərində münasib qiymətə müştərilərə satırlar.



Rayonda kənd əhalisinin əsas gəlir mənbəyi hesab olan qoz və şabalıd bağlarının genişləndirilməsi üçün hər il ardıcıl tədbirlər görülür. Fermerlər son bir ildə 20 hektar sahədə yeni şabalıd və 32 hektar qoz bağları salıblar. Ötən il bağbanlar 321 ton qoz, 390 ton şabalıd əldə ediblər.